Yazan redaktor
11.09.13 11:47 - axırıncı dəyişikliklər 11.09.13 12:00

Dünya həyatında həm nəfsani, həm də ruhani duyğuları təhrik edən təsiredici amillər vardır. Bayramlar bu duyğular arasında insandakı şəfqət, mərhəmət, vəfa və qayğıkeşlik hisslərini canlandırır. İslamda bayramlar insana başqalarını sevindirməyin sevincini də yaşadır eyni zamanda.

Bayram günü kimsəsizlərin, məzlumların və iztirab çəkənlərin könlünü almaqla başlamalıdır. İlk bayramlaşma ən çox yardım və nəvaziş gözləyən keçmişlərimizlə olmalıdır. Bu hal ölülərlə dirilərin görüşməsidir. Fatihələr və sədəqələr hədiyyə olunaraq onlara vəfa borcunun ifasıdır.

Bayram yanıq ürəklərə cənnət sərinliyi verən ilahi bir ziyafətdir. Həmçinin bayram müəyyən bir sinfin şıltaqca yaşadığı, israf çılğınlığı ilə dolu tətil və əyləncə kimi fərdi xoşbəxtlik günləri deyil. Əksinə, sileyi-
r
əhmə riayət etmək
, keçmişl
ərimizin ruhlar
ını xeyir
lə şad etmək, iman qardaşlığını cəmiyyət çapında
yaşatmaq, inciklikl
əri ortadan qald
ırmaq kimi bir çox
ictimai ibadətlərin ifa edildiyi müştərək sevinc günləridir.

Bayram sevincinə haqq qazana bilmək üçün bu sevinci cəmiyyət səthinə əks etdirə bilmək, kədərli və iztirablı möminlərin də könüllərini fərəhləndirmək laz
ımdır. Çünki mö
minlər fərdi rahatl
ıq v
ə mənfəət düşüncələrindən s
ıyrılmadıqca, y
əni nəfslərini aşıb ictimailəşmə-dikcə kamala çatmış sayılmazlar.

Kamil bir mömin yalnız öz evini işıqlandıran bir şam deyil, bütün yer üzündə, dünyası qaralmı
şların başını com
ərd ziyas
ıyla oxşayan, ruhları üşümüş q
əribləri müşfiq istiliyiylə qucaqlayan bir şəfqət və mərhəmət günəşi halında insanlığın fəzilət
səmas
ında parlamalıdır. Gerç
ək bayram s
ə
adəti-nin seyr ediləcəyi ən ayd
ın ayna bayram etdiril
ən q
ırıq könüll
ərdir.

Bunu da unutmayaq ki, keçən Ramazanda həyatda olan dost-tanışlarımızdan,
qohum-əqrəbalarımızdan bəzilə
ri art ı
q aramızda deyill
ər.
Keç
ən Ramazan onlar
ın son Ra-mazanıydı. Biz
də bu məğfirət ay
ını son Ramazanımız ola bil
əcəyi şüuruyla qiymətləndirib ondan tərtəmiz ç
ıxmağa c
əhd göstərməliyik.
Çünki hamımız ilahi imtahan yeri
olan bu dünya məktəbinin tələbələriyik.
T
əhsilimiz əcəl ilə sona çatacaq, əməllərimizlə torpa
ğa basdırılacağıq. Sonra
əbədi bir həyat başlayacaq.
Orada dünya m
əktəbinin
şəhadətnaməsini alacağıq
.
Bu s
əbəblə zahirən nə qədər uzun görünsə də əbədi həyat yan
ında bir aylıq Ramazandan da qısa olan fani ömrümüzü ilahi
əfv ş
ə
had

ə
tnam
ə
si-ni ala biləcək keyfiyyətdə qiymətləndirməyə cəhd göstərək.
Ramazan t
ərbiyəsi alt
ında qazandığımız m
ənəvi qiymətləri itirməyək.
İman v
ə saleh
əməl
həyat
ını mü
əyyən günlərə xas bir mərasim zənn etməyək.

**Rəbbimiz hər birimizi qafilləri oyandıracaq, iztirablıları sevindirəcək gerçək bayramın ruhaniy**
**yə**
**tin**
**ə**
**nail etsin.**
**Dünyadakı h**
**ər günümüzü Ramazan**
**i-Ş**
**ərifin fey**
**z**
**və ruhaniy**
**yə**
**ti içində yaşamağı**
**qismət**
**etsin.**
**Axir**
**ət yurdunu da bizə əbədi bir bayram s**
**evinci**
**etsin…**

**Amin!**